# Qardaşlıq örnəyi, güc konsensusu, həmrəylik manifesti



*Azərbaycanın multiregional xarici siyasəti mənəvi-mədəni baxımdan müxtəlif istiqamətləri əhatə edir. Burada geniş İslam dünyası ilə qurulan əlaqələr xüsusi əhəmiyyət daşıyır. Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz İslam həmrəyliyinə böyük töhfələr verir, bu istiqamətdə təşəbbüskar mövqe nümayiş etdirir. Dövlətimizin xarici siyasətində İslam ölkələri ilə münasibətlərin möhkəmləndirilməsi sadəcə diplomatiya ilə məhdudlaşmır, həm də oxşar tarix, milli-mənəvi dəyərlər və dini bağlara əsaslanan ideoloji yaxınlıqdan qaynaqlanır. Bu baxımdan, Prezident İlham Əliyevin İslam həmrəyliyi ideyasını irəli sürməsi və bu ideyanın müxtəlif beynəlxalq platformalarda dəstəklənməsi təsadüfi deyil. 2017-ci ildə Bakının ev sahibliyi etdiyi IV İslam Həmrəyliyi Oyunları Azərbaycanın bu istiqamətdə atdığı ən mühüm addımlardan biri oldu və İslam dünyasında əməkdaşlıq və qardaşlıq əlaqələrinin möhkəmlənməsinə xidmət etdi.*

Azərbaycanın İslam coğrafiyasında ən yaxın, səmimi tərəfdaşlarından olan Türkiyə və Pakistanla münasibətləri diqqətəlayiqdir. Bu münasibətlər dərin tarixi, mədəni və siyasi təməllərə söykənir. Üç ölkə arasında müxtəlif sahələrdə, siyasi, hərbi, iqtisadi və humanitar əməkdaşlıq daim inkişaf edir. Azərbaycan-Türkiyə-Pakistan üçlüyü bu gün dünya siyasətində bir nümunədir. Tarixi yaxınlıq illər ötdükcə, daha da güclənərək konkret siyasi, iqtisadi və hərbi əməkdaşlıq mexanizminə çevrilmişdir. Bu gün münasibətlər dostluqla, strateji müttəfiqlik səviyyəsində inkişaf edir.

2023-cü ilin iyununda Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın (12 iyun) və Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərifin (15 iyun) Azərbaycana rəsmi səfərləri bu qardaşlığın təzahürüdür. Bundan əlavə, münasibətlərin mühüm bir mərhələsi 2024-cü il iyulun 3-də Astanada baş tutmuş üçtərəfli Zirvə görüşüdür. Azərbaycan Prezidenti İlham Əliyev, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif arasında keçirilən görüş tarixi xarakter daşıyırdı. Görüşlər zamanı bir daha təsdiqləndi ki, üçtərəfli əməkdaşlıq yalnız mövcud gündəliklə bitmir, münasibətləri müstəqil və davamlı format halında dərinləşdirir. Həmin vaxt Zirvə görüşündə Orta Dəhliz layihəsinin inkişaf etdirilməsi məsələsi xüsusi yer tutdu. Azərbaycan, Türkiyə və Pakistan bu dəhlizin genişləndirilməsində maraqlı olduqlarını ifadə etdi.

Hər üç ölkə beynəlxalq təşkilatlarda da bir-birini fəal şəkildə dəstəkləyir. Bu ölkələr BMT, İƏT, Qoşulmama Hərəkatı, ECO və digər təşkilatlarda koordinasiyalı fəaliyyət göstərirlər. Türkiyə və Pakistanın Azərbaycanın ərazi bütövlüyü və suverenliyini dəstəklədiklərini daim açıq şəkildə nümayiş etdirməsi həmrəyliyin bariz nümunəsidir. Bu mövqe 44 günlük Vətən müharibəsi dövründə özünü daha qabarıq şəkildə göstərdi. Həm Türkiyənin, həm də Pakistanın Azərbaycana siyasi və mənəvi dəstəyi tarixi əhəmiyyət daşıyır.

2021-ci ildə Azərbaycan, Türkiyə və Pakistan xüsusi təyinatlılarının iştirakı ilə keçirilən "Üç Qardaş-2021" hərbi təlimləri bu sahədə əhəmiyyətli dönüş nöqtəsi oldu. Təlimlər sübut etdi ki, bu üç ölkə nəinki siyasi arenada, hərbi sahədə də etibarlı tərəfdaşlardır. Görüşlərdə bu təlimlərin davamlı və mütəmadi şəkildə keçirilməsinin vacibliyi vurğulandı.



Bu ayın 28-də Laçında, Azərbaycanın müstəqillik günündə, illərlə erməni işğalında qalmış, 44 günlük Vətən müharibəsi nəticəsində azad edilmiş şəhərdə Azərbaycan Prezidenti İlham Əliyev, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif bir araya gəldilər. Görüşün Laçında keçirilməsi çox dərin məna daşıyır. Məhz 28 mayda - Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının ildönümündə, üç qardaş dövlətin liderlərinin işğaldan azad edilmiş torpaqlarda görüşməsi regionda yeni güc mərkəzinin formalaşdığının göstəricisidir. Bu, ikinci Zirvə görüşü idi. Görüş çərçivəsində liderlər bir sıra strateji sahələrdə, siyasət, iqtisadiyyat, energetika, müdafiə, kənd təsərrüfatı, informasiya texnologiyaları, nəqliyyat və investisiyalar üzrə əməkdaşlığın daha da dərinləşdiriləcəyini bəyan etdilər. Xüsusilə iqtisadi sahədə konkret rəqəmlər tərəfdaşlığın real məzmununu nümayiş etdirdi.

Görüş zamanı ölkə başçımız dedi: "...Azərbaycan hər zaman qardaş Türkiyənin və Pakistanın yanında olub. Türkiyənin terrorçuluqla mübarizə istiqamətində əldə etdiyi uğurlar bizi ürəkdən sevindirir. PKK terror qruplaşmasının özünü ləğv etməsi və tərk-silah ilə bağlı qərarı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın liderliyinin və əzminin, Türkiyə dövlətinin gücünün nümunəsidir. Bu tarixi hadisə yalnız Türkiyə üçün deyil, ümumilikdə bölgədə sülh və əmin-amanlıq üçün önəmli məsələdir. Bu tarixi hadisə münasibətilə qardaş Türkiyəni bir daha təbrik edirəm.

Pakistan və Hindistan arasında son gərginliyi böyük narahatlıq hissi ilə, eləcə də sülhün və sabitliyin bərpa olunacağı ümidi ilə yaxından izlədik. Bu gərgin dönəmdə ilk gündən Pakistanla həmrəyliyimizi açıq şəkildə ifadə etdik. Münaqişənin dialoq və sülh yolu ilə, beynəlxalq hüququn norma və prinsiplərinə, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə əsaslanan həllini dəstəkləyirik".

Baş nazir Məhəmməd Şahbaz Şərif rəsmi Bakının Pakistan-Hindistan münaqişəsində mövqeyini yüksək qiymətləndirdi: "Çıxışımın sonunda bir daha səmimi-qəlbdən Pakistana sonuncu münaqişədə göstərilən dəstəyə görə təşəkkür edirəm. Bu, açıq-aydın Hindistanın bizə qarşı hərbi təcavüzü idi və bunun üçün heç bir səbəb yox idi. Əziz qardaşım Rəcəb Tayyib Ərdoğan, həmin vaxt Sizin qəti mövqeyiniz və həmrəyliyiniz, eyni zamanda, əziz qardaşım İlham Əliyevin də eyni şəkildə göstərdiyi qətiyyət bizdə çox yüksək qiymətləndirildi, həm xalqımız, həm hökumətimiz, həm də şəxsən mənim tərəfimdən. Biz buna görə hər zaman hər ikinizə və hər iki xalqa təşəkkürümüzü bildirəcəyik".

Cənubi Asiyanın nüfuzlu dövləti Pakistan ilə Cənubi Qafqazın lideri Azərbaycan arasında münasibətlərin hərbi, iqtisadi, humanitar və siyasi spektrdə dinamik və çoxşaxəli şəkildə dərinləşməsi onu göstərir ki, münasibətlər artıq yeni dövrdə strateji tərəfdaşlıq statusuna yüksəlib. Azərbaycan-Pakistan münasibətlərinin ən mühüm sütunlarından biri hərbi əməkdaşlıqdır. Son illərdə bu sahədə baş verən intensivləşmə tərəflərin müstəqil və təhlükəsiz gələcək üçün ortaq vizyona sahib olduğunu nümayiş etdirir. Hərbi tərəfdaşlıq bir neçə istiqamətdə inkişaf edir: müdafiə sənayesində texnoloji tərəfdaşlıq, müxtəlif hərbi təlimlərin birgə təşkili, yüksək səviyyəli qarşılıqlı səfərlər, zabit və hərbi mütəxəssislər arasında təcrübə mübadiləsi.

Diqqətçəkən məqamlardan biri isə Azərbaycanın JF-17C "Thunder" tipli müasir çoxməqsədli döyüş təyyarələrini Pakistandan əldə etməsidir. Bu təyyarələr yüksək manevr qabiliyyəti, müasir elektron sistemlərlə təchizatı ilə seçilir. 2023-cü il sentyabrın 25-də bu təyyarələrin Prezident İlham Əliyevə təqdim olunması Azərbaycanın hava hücumundan müdafiə və hücum gücünü əhəmiyyətli dərəcədə artırdı.

Pakistanla Azərbaycan arasındakı dostluq həm də humanitar əməkdaşlıqda dərin təzahürünü tapır. Pakistan təbii fəlakətlərlə üzləşəndə Azərbaycan hər zaman ilk yardım edən ölkələrdən biri olub. Bu günə qədər Azərbaycandan Pakistana göstərilən humanitar yardımın ümumi dəyəri 9 milyon ABŞ dollarını keçib. Bu yardımlar yalnız dövlət səviyyəsində deyil, eyni zamanda vətəndaş cəmiyyəti, xeyriyyə təşkilatları və könüllülər tərəfindən həyata keçirilib.

Ali səviyyəli qarşılıqlı səfərlər Azərbaycan-Pakistan münasibətlərinin dərin və dinamik xarakterini əyani şəkildə nümayiş etdirir. Son illərdə Prezident İlham Əliyevin Pakistan rəsmiləri ilə keçirdiyi görüşlər, mütəmadi siyasi məsləhətləşmələr və strateji məsələlərin müzakirəsi, səmimi dostluq və qarşılıqlı inam əsaslı əməkdaşlığın nümunəsidir. Bu kontekstdə, 2024-cü il iyulun 11-də Prezident İlham Əliyevin Pakistana dövlət səfəri xüsusi əhəmiyyət kəsb edir. Səfər zamanı Azərbaycan Prezidentinə xüsusi hörmət əlaməti olaraq dövlətimizin başçısının təyyarəsini Pakistanın hava məkanında bu ölkənin Hərbi Hava Qüvvələrinin qırıcı təyyarələri qarşıladı və enənədək müşayiət etdi.

Azərbaycan və Pakistanın münasibətləri də regional sabitlik və strateji gücün formalaşmasına xidmət edir. İki dövlət hərbi, iqtisadi, humanitar və nəqliyyat sahələrində ardıcıl və planlı əməkdaşlıq formatları yaratmaqla, gələcəyin təhlükəsiz və davamlı Avrasiya platformasında öz yerini möhkəmləndirir. Azərbaycan üçün Pakistan Cənubi Asiyada etibarlı, sadiq və güclü tərəfdaşdır. Pakistan üçün isə Azərbaycan Qafqazın siyasi, hərbi və iqtisadi liderlərindən biri, dostluq və dəstək timsalıdır. İki ölkə arasındakı bu münasibətlər gələcək nəsillər üçün də sabit və dayanıqlı strateji ittifaqın bünövrəsidir.

Azərbaycan-Türkiyə münasibətləri uzun illərdir strateji müttəfiqliyə çevrilib. Bu münasibətlərin fəlsəfəsi "bir millət, iki dövlət" ideologiyası ilə başlanmış, 2021-ci ilin iyununda imzalanan Şuşa Bəyannaməsi ilə hüquqi-institusional forma almışdır. Bu sənəd hərbi, enerji, iqtisadiyyat, təhlükəsizlik və humanitar sahələrdə əməkdaşlığın yeni mərhələyə keçməsini təsdiqlədi. Bəyannamənin imzalanmasından sonra keçirilən "Qardaş Yumruğu" hərbi təlimləri iki ölkə arasında təhlükəsizlik və müdafiə sənayesində dərin sinxronizasiyanın başlanğıcı oldu. Bu təlimlər müdafiə sənayesində birgə istehsal və texnologiya mübadiləsi proseslərinə təkan verdi.

Azərbaycan və Türkiyənin birgə reallaşdırdığı enerji layihələri nəinki regionun, Avrasiyanın enerji xəritəsini dəyişib. Bakı-Tbilisi-Ceyhan (BTC) neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri, Trans-Anadolu Qaz Boru Kəməri (TANAP) - bu üç əsas enerji arteriyası Azərbaycanın xam resurs ixracatında etibarlı enerji tərəfdaşına çevirib. Eyni zamanda, son illərdə bərpaolunan enerji sahəsində, xüsusilə günəş və külək enerjisi istehsalı üzrə Azərbaycan və Türkiyə arasında genişmiqyaslı layihələrə start verilib. Bu sahədə də Pakistanın potensialı nəzərə alınmaqla, üçtərəfli enerji konsorsiumu perspektivdə real görünür. Azərbaycan və Türkiyə Asiyanı Avropa ilə birləşdirən əsas geostrateji körpü rolunu oynayır. Orta Dəhliz, yəni Çin, Mərkəzi Asiya, Azərbaycan, Gürcüstan və Türkiyə vasitəsilə Avropaya çıxan logistika marşrutu bu gün regional inteqrasiyanın əsas sütunlarından biridir. Bu barədə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan deyib: "Əməkdaşlığımızın son dərəcə strateji aspektini təşkil edən nəqliyyat sahəsində "İnkişaf Yolu", "Orta Dəhliz" və "Şimal-Cənub Nəqliyyat Dəhlizi" kimi layihələrə birlikdə töhfə verəcəyik. Mədəniyyət və təhsil sahələrində, xüsusilə də gənclərimizin və alimlərimizin qarşılıqlı təmaslarını artıracaq layihələr üzərində çalışacağıq. Enerji təhlükəsizliyi, ərzaq təhlükəsizliyi və bərpaolunan enerji sahələrindəki imkanları birlikdə dəyərləndirəcəyik.

İnşallah, bütün bu sahələrdə nüfuzlu layihələri həyata keçirməklə üçtərəfli əməkdaşlığımızı daha da yüksək səviyyəyə çatdıracaq və xalqlarımıza yeni nailiyyətlər bəxş edəcəyik".

Bu gün Azərbaycan-Türkiyə-Pakistan münasibətləri dünyanın yenidən formalaşan geosiyasi düzənində söz sahibi olan üçtərəfli güc mərkəzinin təzahürüdür. Tarixi, mədəni, dini və mənəvi ortaq bağlarla bir-birinə sıx bağlı olan bu üç ölkə siyasi müdriklik, hərbi güc və iqtisadi potensial baxımından da bir-birini tamamlayır. Ölkələrin birliyi qardaşlıq, etimad və ortaq strateji baxışlara söykənir.

Azərbaycan, Türkiyə və Pakistan arasında formalaşmış strateji üçbucaq dünya siyasətində yeni və ədalətli yanaşmanın nümunəsinə çevrilir. Bu birlik davamlı sülh, təhlükəsizlik və inkişaf üçün real zəmin yaradır. Birgə təşəbbüslər hərbi təlimlərdən tutmuş enerji layihələri, humanitar yardımlara, nəqliyyat və rəqəmsal transformasiya sahəsinə qədər çoxşaxəli əməkdaşlıq mexanizmləri cəmləşib. Bu kontekstdə, geosiyasi təlatümlərin yaşandığı bir dövrdə Azərbaycan, Türkiyə və Pakistan strateji tərəfdaşlığı həm xalqların rifahı, həm də regionda ədalətli nizamın qurulması naminə mühüm addımdır. Bu qardaşlıq zamanın sınağından çıxmış həmrəylik modelidir, gələcək nəsillər üçün sabit, dəyərli və uzunömürlü əməkdaşlıq mirasıdır.

**Ləman TƏHMƏZ,**
**"Respublika".**